Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 48-49 (7510-7511) • 1933-cü ildən nəşr olunur • Bazar ertəsi, 29 oktyabr 2018-ci il. • news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**25 oktyabr**

Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər. Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

**24 oktyabr**

Prezident İlham Əliyev oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul edib. Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı məsələlər müzakirə edilib, ölkələrimiz arasında gələcəkdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə əminlik ifadə olunub.

**23 oktyabr**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli rayonunda səfərdə olub.

* * *

Dövlət başçısı İmişli rayonuna səfəri çərçivəsində "Asan həyat" kompleksinin, 100 yerlik uşaq bağçasının, Bayraq Muzeyinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin, İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, İmişli-otuziki -Qaraqaşlı avtomobil yolunun, Mingəçevir Bəhramtəpə avtomobil yolunun Qarağacı- Bəhramtəpə hissəsinin, Araz çayının yeni qol-kanalının açılışlarında iştirak edib, İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub.

**21 oktyabr**

Dövlət başçısı İlham Əliyev Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib.

## İlham ƏLİYEV: *Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir.*




# Bakıda VI Beynəlxalq Humanitar Forumu işə başlayıb

### *Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib*

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" mövzusunda keçirilən VI Beynəlxalq Humanitar Foruma 86 ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndə qatılıb.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

Sonra Rusiya Federasiyası Hökuməti sədrinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub. O, çıxışında Forumun ildən-ilə inkişaf etdiyini, Bakının humanitar dialoq mərkəzinə çevrildiyini bildirib.

Daha sonra BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Qu Ksinq və Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış ediblər.

2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

# «İlham Əliyev. İnkişaf - məqsədimizdir» çoxcildliyin 71-ci kitabı çapdan çıxıb

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 71-ci kitabındakı materiallar 2015-ci ilin oktyabrından dekabr ayınadək olan dövrü əhatə edir.

Bu cilddə Prezident İlham Əliyevin müxtəlif nitq və çıxışları, KİV-lərə bəyanatları, həmçinin məktubları ilə tanış olmaq mümkündür.

"Azərnəşr" tərəfindən buraxılan 71-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

